# Bakı şəhəri F.Əmirov adına 6 saylı Uşaq İncəsənət Məktəbi



**Aytən Manafova**
*Musiqişünas*
*F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbinin müəllimi*

## YAŞAYIB YARADAN MƏKTƏB

Təhsil millətin gələcəyidir. Üç kəlmədən ibarət olan bu cümlənin əslində böyük məna tutumu vardır. Savadlı, hərtərəfli dünyagörüşlü , mükəmməl təhsilli gənclik ölkənin gələcək rifahı, tərəqqisinin açarıdır. Çox sevindirici haldır ki, bu gün Azərbaycanda belə gənclik yetişir və qürurla demək olar ki, musiqi, incəsənət sahəsində dogma Vətənimizin adını dünyada tanıtdıran gənclər üstünlük təşkil edir.

> "Uşaqlar və gənclər bizim gələcəyimiz, ümidimizdir. Sabahın bəstəkar və musiqişünası onlar arasından çıxacaqdır".
> **F.Əmirov**

Bu gün respublikanın bütün bölgələrində musiqi məktəbləri fəaliyyət göstərir.

Belə məktəblərdən biri də böyük Azərbaycan bəstəkarı F.Əmirovun adını daşıyan 6 nömrəli onbirillik İncəsənət Məktəbidir. Bu il məktəb 60 illik yubileyini qeyd edir.

Əvvəllər 18 nömrəli uşaq məktəbi kimi fəaliyyət göstərən məktəbin əsası 1962- ci ildə qoyulmuş, 1999-cu ildəAzərbaycan Respublikası Mədəniyyət Nazirinin 01.04. 1999- cu il tarixli 71 nömrəli əmrinə əsasən 6 nömrəli uşaq incəsənət məktəbinə çevrilmişdir. Heydər Əliyevin 7 noyabr 2002- ci il tarixli 100083 saylı sərəncamına əsasən F.Əmirovun yubileyi Respublika miqyasında keçirilmiş və Azərbaycan Respublikasının Mədəniyyət Nazirinin 26.11.2002- ci il 357 nömrəli əmrinə əsasən 6 saylı Uşaq İncəsənət məktəbinə görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun adı verilmişdir .Daha sonra isə Azərbaycan Respublikası Mədəniyyət nazirliyinin 21.07. 2005 – ci il 287 nömrəli əmrinə əsasən F.Əmirov adına 6 nömrəli Uşaq İncəsənət Məktəbi 2005- ci il 15 sentyabr tarixindən büdcədən ayrılmış vəsait daxilində onbirillik təhsil sisteminə keçmişdir. Onu da qeyd edək ki, F.Əmirov adına 6 nömrəli İncəsənət Məktəbi Respublikada onbirillik təhsil statusu almış ilk incəsənət məktəblərindən biridir.

Bu illər ərzində məktəbin məzunları sırasında hazırda Azərbaycan Respublikasının görkəmli sənət xadimləri vardır ki, onlardan Sərdar Fərəcov, Xalq artistləri, Möhlət Müslümov, Əməkdar artist Vaqif Məstanov və b. göstərmək olar. Müxtəlif illərdə məktəbdə





görkəmli incəsənət xadimləri pedaqoji fəaliyyət göstərmiş və bu ənənə indiyə qədər də davam edir. Onlardan xalq artistləri- Əlibaba Məmmədov, Məmmədbağır Bağırzadə, Ağaxan Abdullayev, Sərdar Fərəcov, əməkdar artistlər Kamil Dadaşov, Zemfira Həsənova və b. adlarını çəkə bilərik.

60 illik tarixi boyu məktəbə Yusif Məmmədov, Nadir Hüseynov, Tofiq Məmmədov, Nəriman Əliyev rəhbərlik etmiş və hər biri məktəbin təhsil sisiteminin inkişafı, daha yaxşı səviyyəsi üçün əlindən gələni əsirgəməmişlər.

2016- cı ildən məktəbə bəstəkar , Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru Adilə Niyazi qızı Yusifova rəhbərlik edir. Səlahiyyətinin ilk günlərindən A.Yusifova məktəbin fəaliyyət istiqamətində yeni mərhələni müəyyənləşdirmişdir. Bu innovasiya ifaçılıq, xoreoqrafiya, təsviri incəsənət şöbələrinin birbirindən maraqlı layihələrin meydana gəlməsini şərtləndirirdi.

Bu gün məktəbdə fortepiano, skripka, fleyta, truba, qoboy, Avropa zərb alətləri, tar, kamança, qanun, nağara, vokal və xanəndə sinfi, təsviri incəsənət, heykəltəraşlıq və xoreoqrafiya şöbələri fəaliyyət göstərir. Hər il məktəbi bitirən məzunların böyük qismi ali musiqi və incəsənət ocaqlarına daxil olurlar.

Qeyd etmək lazımdır ki, müxtəlif illərdə məktəbin uğurları Respublikanın sərhədlərini aşmışdır. "Ay işığı" skripkaçılar ansamblı, "Odlar yurdu" rəqs qrupu dəfələrlə Rusiya, Türkiyə,Türkmənistan və başqa ölkələrdə qastrol səfərlərində olmuşlar. Müxtəlif illərdə keçirilən "Qönçə" festivalında, gənc rəssamların əsərlərindən ibarət müxtəlif mövzulu sərgilərdə, dövlət əhəmiyyətli tədbirlərdə məktəbin şagirdləri uğurla çıxış etmişlər.

Bu gün məktəb var gücü ilə çalışır. Məktəbdə mütəmadi olaraq, musiqiçilər, bəstəkarlar, rəssamlarla görüşlər, Bakı Musiqi Akademiyası ilə yaradıcılıq mübadilələri, ustad dərslər keçirilir. Belə əhəmiyyətli tədbirlərdən Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti professor Firəngiz Əlizadə ilə "Yaradıcılıq kredom- gözəl musiqidir " adlı görüş-disskusiya, əməkdar incəsənət xadimi, rəssam Elturan Avalovun yaradıcılığına həsr olunmuş "Boyaların və musiqinin ahəngi" adlı tədbir, Əməkdar incəsənət xadimi professor Telman Hacıyevlə "Sehrli fleytanın ovsunlayan sədası " adlı görüş-ustad dərsi, Türkiyə Cümhuriyyəti Afyon Kocatepe Universitetinin dosenti, tanınmış pianoçu Natiq Rzazadə, əməkdar artist, pianoçu Nərgiz Əliyarova, BMA- nın solo oxuma kafedrasının müdiri Svetlana Mirzəyeva, professor Töfhə Babayeva ilə ustad dərsləri göstərmək olar. Bundan başqa F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət Məktəbinin Bakı Musiqi Akademiyasının "Qədim musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi" labaratoriyası ilə birgə layihəsi, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin tələbələri ilə birgə konserti məktəbin fəaliyyətində əhəmiyyətli hadisələr kimi qeyd edilməlidir.








Bəstəkarın öz iştirakı ilə təşkil olunmuş "Uşaqlar sevinsin həmişə"adlı Oqtay Rəcəbovun yaradıcılıq gecəsi, Oqtay Zülfüqarovun yaradıcılığına həsr olunmuş təbdir, Xalq artisti, görkəmli xanəndə, məktəbdə uzun müddət pedaqoji fəaliyyət göstərən Ağaxan Abdullayevin 70 illik yubileyinə həsr olunmuş xatirə gecəsi və başqaları məktəbin fəaliyyətini yalnız tədrislə məhdudlaşmadığına bariz nümunədir.

İstadadlı şagird ağaca bənzəyir . Ağacı bəslədikcə, qulluq etdikcə tumurcuqlayır, çiçəkləyirvə nəhayət bar verir. Vaxtında aşkarlanan və düzgün istiqamətləndirilən istedad da zaman keçdikcə öz bəhrəsini verir. Bu gün məktəbdə onlarla istedadlı şagirdlər təhsil alır. Məktəbdə tədris verən peşəkar, səriştəli müəllimlərin sayəsində şagirdlər Respublika və beynəlxalq müsabiqələrdə uğurlu nəticələr qazanaraq, məktəbin naliyyətlərinə öz imzalarını atmağa müvəffəq olmuşlar. "Testene art", World Harmony", Florida keys" beynəlxalq musiqi festivalları, Belarusiyada keçirilən VII Beynəlxalq rəsm sərgisi, Misirdə keçirilən ənənəvi "Dünya uşaqların gözü ilə", Yaponiyada keçirilən 22-ci Dünya Uşaq sərgisində I yer qazanmış çox sayda şagirdlərin adlarını çəkə bilərik.

Bu gün məktəbin tədrislə bağlı bir neçə perspektiv planları, qarşısına qoyduğu prioritet məsələlər vardır. Bu məsələlər arasında şagirdlərdə musiqi elminə olan marağın formalaşdırılması istiqamətində aparılan işlərdir ki, artıq bu sahədə əhəmiyyətli addımlar aparılıb. Belə ki, 2016- cı ildən başlayaraq, A. Yusifovanın təşəbbüsü ilə "F.Əmirovun əsərlərini ifa və təhlil edirik"adlı şagirdlərin elmi-ifaçılıq konfransı keçirilir. Ilk dəfə məktəbdaxili keçirilən bu konfrans ikinci dəfədən daha da geniş vüsət almış, Bakıda fəaliyyət göstərən musiqi və incəsənət məktəbləri bu konfransa qatılmışlar. Elmi – ifaçılıq konfransının əsas məqsədi uşaq yaşlarından şagirdlərdə elmi biliklərə can atmağı formalaşdırmaq, daim axtarışlara meyli gücləndirmək, ifa etdikləri əsər haqqında müstəqil fikir yürütmək bacarıqlarını inkişaf etdirməkdir. Bu il böyük bəstəkarın anadan olmasının 100 illik yubileyi ərəfəsində məktəb növbəti elmi ifaçılıq konfransına imza atacaq. Artıq VII dəfə keçiriləcək elmi- ifaçılıq konfransının əhatə dairəsi daha da genişlənərək, respublikanın bir sıra musiqi və incəsənət məktəblərini ehtiva edəcək, həmçinin bu dəfəki yubiley konfransın daha çox konfrans-festival formatında təqdim olunması nəzərdə tutulub. Müəllimlərin bəstəkar yaradıcılığı ilə bağlı məruzələri F.Əmirovun füsunkar, əsrarəngiz musiqi əsərləri ilə rövnəqlənəcəkdir.



Məktəbdə böyük bəstəkarın adı ilə bağlı daha bir əhəmiyyətli iş artıq 2016- cı ildən A.Yusifovanın təşəbbüsü ilə yaradılmış, böyük bəstəkarın anadan olmasının 94- cü ildönümü münasibəti ilə təsis



edilmiş muzey – guşədir. Muzeydə bəstəkarın əsərlərinin klavir və partituraları, fotoşəkillər, sənədlərin foto-surətləri, öz əli ilə yazılmış məktublar, əsərlərinin əlyazmaları var. Bu muzeydən musiqi ədəbiyyatı fənninin tədrisində əyani vəsait kimi istifadə olunur. Nəzəriyyə şöbəsinin müəllimləri bəstəkarın yaradıcılığı ilə bağlı mövzuları bilavasitə muzeydə tədris edirlər. Muzey – güşəmizin daim yenilənməsi məktəbin uğurudur.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, məktəb binasında rastlaşdığımız "Günabaxan", " Musiqi multikultural kontekstdə" "Yanar çıraq" kreativ art-obyektlərin ideya müəllifi məhz Adilə xanım Yusifovadır.



Məktəbin innovasiyaları bununla bitmir. 2020- ci ildə Yarat Müasir İncəsənət Mərkəzinin səhnəsində "Nağıl dolu dünya" adlı konsert-tamaşa təşkil edilmişdir. Bu da gələcəkdə məktəbdə uşaq teatrının yaradılmasını müjdələyir.

Yubiley ilində məktəbin daha bir yeniliyi məktəbin tarixi yolunu işıqlandıran kitabın nəşrə hazırlanmasıdır.

Böyük bəstəkarın 100 illik yubileyi ərəfəsində məktəb bir-birindən maraqlı, əhəmiyyətli tədbirlərə hazırlaşır. 22 aprel 2022- ci ildə Azərbaycan Dövlət Akademik Filarmoniyasında M.Mehmandarovun dirijorluğu ilə məktəbin şagirdləri Dövlət Simfonik orkestri ilə birgə böyük konsert proqramı ilə çıxış etdilər. Həmçinin yubiley tədbirində A.Yusifovanın şanlı zəfərimizə həsr olunmuş "Azərbaycan bayrağı" kantatasının ilk təqdimatı da keçirildi.




İllər, qərinələr bir-birini əvəz edir, könülləri fəth edən , qəlbləri riqqətə gətirən F.Əmirov musiqisi isə daim yaşayır. Biz də öz növbəmizdə böyük bəstəkarın adını daşıyan , onun ənənlərini qoruyan məktəbə uğurlar və uzunömürlü fəaliyyət arzu edirik. Qoy böyük bəstəkarın musiqisinin yanar çırağı məktəbin həyatına daim nur saçsın.